# Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir

## Mədəniyyət və turizm naziri Xırdalanda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev noyabrın 6-da Xırdalan şəhərindəki Heydər Əliyev Mərkəzində Sumqayıt şəhəri, Abşeron, Xızı, həmçinin Qubadlı, Zəngilan və Şuşa rayonlarından olan vətəndaşları qəbul edib.

Əvvəlcə mərkəzin qarşısında ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyulub, xatirəsi ehtiramla yad olunub.

Sonra nazir Xırdalandakı Heydər Əliyev adına mədəniyyət və istirahət parkında həyata keçirilən tikinti-quruculuq işləri ilə tanış olub, parkın ərazisində yerləşən Bayraq meydanı, “Park Abşeron” əyləncə mərkəzi, Xırdalan şəhər uşaq musiqi məktəbi və tarix-diyarşünaslıq muzeyinə baş çəkib. Mədəniyyət ocaqlarının fəaliyyəti, burada yaradılan şərait barədə nazirə məlumat verilib.

Əbülfəs Qarayev Heydər Əliyev Mərkəzi ilə də tanış olub, burada yaradılan fotoekspozisiyaya baxıb.

Nazirliyin struktur rəhbərlərinin iştirakı ilə keçirilən qəbul zamanı vətəndaşların müraciətləri əsasən tarix və mədəniyyət abidələrinin qorunması, mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, təmiri, fəxri adların verilməsi, işlə təminat və digər məsələlərlə bağlı olub.

Qəbulda 30-dək vətəndaş iştirak edib. Nazir Əbülfəs Qarayev hər bir vətəndaşı diqqətlə dinləyib, onların müraciət və təkliflərinin həll olunması üçün müvafiq göstərişlər verib.

## Nəqliyyat naziri Ağdaşda

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər.

Növbəti belə qəbul noyabrın 6-da Ağdaş rayonunda keçirilib. Nəqliyyat naziri Ziya Məmmədov Göyçay, Ucar və Ağdaş rayonlarından olan vətəndaşları qəbul edərək onların müraciətlərini, şikayət və təkliflərini dinləyib.

Vətəndaşların müraciətləri əsasən avtomobil yollarının təmiri və yenidən qurulması, yeni avtobus marşrutlarının açılması, Ağdaş və Göyçay şəhərlərində müasir tipli avtovağzalın tikintisinə kömək göstərilməsi, M-2, Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun 279-cu kilometrliyində, Ağdaş rayonunun Yenicə kəndi ərazisindən keçən hissəsində mal-qara keçidinin qurulması, M-2, Bakı-Ələt-Qazax-Gürcüstan dövlət sərhədi avtomobil yolunun 282-ci kilometrliyində körpünün tikilməsi və digər məsələlərlə bağlı olub.

Eyni zamanda, Ağdaş rayonunun Aşağı Zeynəddin kəndində məskunlaşmış məcburi köçkünlər adından həmin kəndin avtomobil yolunun təmiri üçün müraciət olunub. Ziya Məmmədov məsələnin həlli ilə əlaqədar nazirliyin struktur rəhbərlərinə göstərişlər verib və bu gündən etibarən Aşağı Zeynəddin kəndində avtomobil yolunun təmiri işlərinə başlanılıb.

Nəqliyyat naziri Ziya Məmmədov vətəndaşların səsləndirdikləri müraciət və şikayətlərlə əlaqədar nazirliyin struktur rəhbərlərinə göstərişlər verib. Vətəndaşları narahat edən və nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər isə aidiyyəti qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Qəbulda 50-dən çox vətəndaş iştirak edib.

## Gənclər və idman naziri Goranboyda

Gənclər və idman naziri Azad Rəhimov noyabrın 6-da Goranboy rayonunda Gəncə, Naftalan şəhərləri, Ağstafa, Daşkəsən, Goranboy, Göygöl, Gədəbəy, Qazax, Samux, Şəmkir və Tovuz rayon sakinlərini qəbul edib.

Nazirlikdən bildiriblər ki, Heydər Əliyev Mərkəzində keçirilən qəbulda ümumilikdə 40-a yaxın vətəndaş iştirak edib. Müraciətlər əsasən gənclər, idman, tikinti sahələri, ipoteka kreditlərinin verilməsi, iş ilə təminatla bağlı olub.

Gənclər sahəsi üzrə qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay istirahət düşərgələrinin təşkili, gənclər mərkəzlərinin müvafiq avadanlıqlarla təmin edilməsi və fəaliyyəti ilə bağlı 10-a yaxın müraciət edilib.

İdman sahəsində fəxri adların verilməsi, idman mərkəzlərinin avadanlıqlarla təmin olunması, olimpiya idman komplekslərinin, idman qurğularının tikintisi və təmiri, uşaq gənclər və idman mərkəzlərinin və bölmələrin yaradılması və digər məsələlərlə bağlı 15-dən çox müraciət qeydə alınıb.

Digər müraciətlər ipoteka kreditlərinin verilməsi, iş ilə təminat və şəxsi məsələlərlə bağlı olub.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

***AZƏRTAC***